Azərbaycan.- 2024.- 17 mart, № 60.- S.5.

# Azərbaycanı dünyaya tanıdan qlobal platforma

**"Vətən müharibəsindəki qələbədən sonra dünyada nüfuzu daha da artan Azərbaycan həm də mühüm beynəlxalq tədbirlərin əsas ünvanı kimi tanınır. Bu günlərdə isə Azərbaycan müzakirə olunan məsələlərin əhəmiyyəti və qlobal statusu baxımından ciddi əhəmiyyət kəsb edən XI Qlobal Bakı Forumu ilə dünyanı bir araya gətirdi. Forumda müasir qlobal çağırışlar və problemlər müzakirə olundu".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Cavanşir Paşazadə deyib. Deputat bildirib ki, "Parçalanmış dünyanın bərpası" mövzusunda keçirilən XI Qlobal Bakı Forumu beynəlxalq mahiyyət kəsb edir: "Sözügedən forumda 68 ölkədən 400-dən çox qonağın iştirak etməsi də bu faktı təsdiqləyir. Görünən odur ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi tədbirlərə maraq getdikcə artmaqdadır. Ona görə də hər il forumda dünyada tanınan yüzlərlə nüfuzlu insan iştirak edir. Nəzərə almaq lazımdır ki, qonaqlar arasında hazırkı və sabiq dövlət və hökumət başçıları da yer alır".

Cavanşir Paşazadə Prezident İlham Əliyevin XI Qlobal Forumun açılış mərasimindəki dərinməzmunlu çıxışına da diqqət çəkib. Bildirib ki, dövlət başçısı forumdakı nitqində sülhə çox yaxın olduğumuzu bir daha bəyan edərək ölkəmizin bu prosesi davam etdirməyə hazır olduğunu vurğuladı, həmçinin güclü hərbi potensialımıza və xalqın birliyinə xüsusi toxundu. Ölkə rəhbəri dünyada və regionumuzda gedən proseslər, Qoşulmama Hərəkatı müstəvisində fəaliyyətimiz və digər vacib mövzularla bağlı fikirlərini də ifadə etdi.

Deputatın sözlərinə görə, forumun mühüm qlobal əhəmiyyətə malik olduğu bu tədbirə qatılan qonaqların fikirlərində də aydın ifadəsini tapıb: "Təsadüfi deyil ki, Azərbaycanın iqtisadi cəhətdən inkişafı, düzgün siyasi gedişləri yüksək qiymətləndirilir və bölgənin ən güclü ölkəsi hesab edilir. Həmçinin regional diplomatiyanın və bir sıra layihələrin qovşağına çevrilməsi baxımından da ölkəmizin nailiyyətləri dəyər görür. Türkiyənin xarici işlər naziri Hakan Fidanın XI Qlobal Bakı Forumundakı çıxışında səsləndirdiyi "Azərbaycan artıq Cənubi Qafqazın yeni parlayan ulduzudur" fikri də ölkəmizin yüksək tərəqqiyə çatdığını bir daha ifadə edir".

Cavanşir Paşazadə həmçinin ölkəmizin COP29-a evsahibliyinin də daim gündəmdə olduğunu deyib. Müsahibimiz vurğulayıb ki, forum iştirakçıları COP29 kimi mötəbər beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı qərarı yekdilliklə dəstəkləyiblər. Bu, ölkəmizə beynəlxalq aləmdə olan inam və etimadın bariz nümunəsidir. Həmçinin Prezident İlham Əliyevin çıxışında vurğuladığı ki, COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin "yaşıl keçid"lə bağlı səylərinin qəbul edilməsidir.

Deputat yekunda vurğulayıb ki, Qlobal Bakı Forumu bir sıra məsələlərə cavab tapmaq və bəzi problemlərin həlli baxımından mühüm tədbirdir. Bu qlobal platforma Azərbaycanı dünyaya uğurla tanıdır.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***